Azərbaycan Respublikası
Mərkəzi Bankı İdarə Heyətinin
"28" sentyabr 2020-ci il
tarixli qərarı ilə təsdiq edilmişdir
Protokol № 44
D/Reyestr № 420

# Ani Ödənişlər Sistemində iştirakçıların fəaliyyətinin təşkili üzrə prosedur Qaydalar

## MÜNDƏRICAT

1. Ümumi müddəalar ........ 3
2. AÖS-ün məqsədi ........ 3
3. Məlumat mübadiləsinin təşkili ........ 3
4. Mərkəzi Bankın vəzifələri ........ 4
5. Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin vəzifələri ........ 6
6. Birbaşa iştirakçıların və birbaşa olmayan iştirakçıların vəzifələri ........ 6
7. Vasitəçilərin vəzifələri ........ 8
8. Mobil operatorların vəzifələri ........ 9
9. İştirakçılar tərəfindən istifadəçilərin eyniləşdirilməsi ........ 10
10. Əməliyyatlar üzrə təyin edilmiş vaxt limitləri ........ 12
11. Əməliyyatların valyutası və hər bir əməliyyat tranzaksiyası üçün limit ........ 13
12. Yekun müddəalar ........ 13

Əlavə №1 ........ 14

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar Ani Ödənişlər Sistemində (bundan sonra – AÖS) iştirakçıların fəaliyyətinin təşkili üzrə prosedur qaydaları müəyyən edir.

**1.2.** AÖS-də hesablaşmaların aparılması Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilmiş “Azərbaycan Respublikasında banklararası mərkəzləşdirilmiş ödəniş sistemlərində hesablaşmaların təşkili Qaydaları” ilə tənzimlənir.

**1.3.** AÖS-də iştirakla bağlı Mərkəzi Banka ödənilən, həmçinin, iştirakçı təşkilatlar arasında, eləcə də iştirakçı təşkilatlarla vasitəçilər arasında tətbiq olunacaq xidmət haqları Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilmiş tariflərlə tənzimlənir.

**1.4.** AÖS-də iştirakçılar arasında məlumat mübadiləsi sistemin reqlamenti (Əlavə №1) əsasında aparılır.

**1.5.** AÖS-də aparılan əməliyyatlar üzrə iştirakçılar arasında yaranan mübahisəli halların iştirakçılar tərəfindən danışıqlar yolu ilə həll olunması mümkün olmadığı halda münasibətlər Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilmiş “Ani Ödənişlər Sistemi ilə aparılan əməliyyatlar zamanı yaranmış mübahisəli halların həlli üzrə Təlimat”a uyğun olaraq tənzimlənir.

## 2. AÖS-ün məqsədi

AÖS-ün əsas məqsədi innovativ ödəniş üsullarından istifadə edilməklə ödəyicilər üçün müxtəlif eyniləşdirmə vasitələrinin (bank hesabı, mobil nömrə, fərdi identifikasiya nömrəsi (FİN), Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN), elektron poçt ünvanı və s.) tətbiq edilməsi yolu ilə 24/7/365 rejimində ölkədaxili ödənişlərin və bu ödənişlər üzrə hesablaşmaların təmin edilməsidir.

## 3. Məlumat mübadiləsinin təşkili

**3.1.** AÖS-də iştirakçılar arasında məlumat mübadiləsi ISO20022 standartına uyğun hazırlanmış məlumat formatları əsasında həyata keçirilir.

**3.2.** AÖS-də informasiya təhlükəsizliyinin təmin oluması üçün Mərkəzi Bankın “Bank Sertifikat Xidməti Mərkəzinin” elektron sertifikatlarından istifadə olunur. Bu zaman sanksiya olunmamış kənar müdaxilələrdən qorunmaq üçün istifadə olunan məlumat ötürülmə kanalları şifrələnir və iştirakçıların qeydiyyat kodları üzrə autentifikasiya aparılır.

**3.3.** AÖS-də iştirakçılar arasında məlumat mübadiləsi aşağıdakı komponentlər vasitəsilə həyata keçirilir:

**3.3.1.** "AÖS-ün Nüvəsi" (STPG REST API) - ISO20022 standartı əsasında məlumat mübadiləsinin həyata keçirilməsi və hesablaşmaların 24/7/365 rejimində icra edilməsi üçün istifadə edilir;

**3.3.2.** "Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası" modulu (CAS REST API) - istifadəçilərin qeydiyyatı və onlar haqqında məlumatların idarə edilməsi üçün istifadə edilir;

**3.3.3.** "Autentifikasiya" modulu (AUTH REST API) – istifadəçilərin eyniləşdirilməsinin həyata keçirilməsi üçün istifadə edilir;

**3.3.4.** "Açıq Bankçılıq" modulu (Open Banking REST API) - vasitəçilərin elektron bankçılıq xidmətlərində müştərilərin hesablarının qeydiyyatı üzrə icazə alınması, hesab qalığının və əməliyyat tarixçəsinin əldə olunması, birdəfəlik kod (bundan sonra – OTP) autentifikasiyası zamanı kodun göndərilməsi üçün hesaba xidmət göstərən iştirakçıya müraciətin olunması üçün istifadə edilir;

**3.3.5.** "Mübahisəli halların həll edilməsi" modulu (Dispute REST API) – AÖS-də əməliyyatların aparılması prosesində yaranmış mübahisəli halların həll edilməsi üçün istifadə edilir.

**3.4.** İştirakçılar bu Qaydaların 3.3-cü bəndində qeyd olunan komponentlər ilə məlumat mübadiləsini, həmçinin bu zaman istifadə olunan məlumat formatlarında kodlaşdırma tələb olunan sahələr (əməliyyatın keçirilmə metodunun kodu, əməliyyat növünün kodu, təsərrüfat subyektinin təsnifat kodu, strukturlaşdırılmış məlumat kodu və s.) üzrə qiymətləndirməni mütləq qaydada Mərkəzi Bank tərəfindən təqdim olunmuş AÖS-ün texniki spesifikasiyaları əsasında həyata keçirir.

## 4. Mərkəzi Bankın vəzifələri

**4.1.** AÖS-ün 24/7/365 rejimində fasiləsiz, sabit və etibarlı fəaliyyətini, həmçinin bu məqsədlə Mərkəzi Bankın ehtiyat mərkəzlərində sistemin komponentlərinin daim işlək vəziyyətdə olmasını təmin edir.

**4.2.** AÖS-ün iş reqlamentini müəyyənləşdirir və bu reqlamentə hər hansı dəyişikliklər olduğu halda iştirakçılara elektron və ya kağız daşıyıcıda məlumat verir.

**4.3.** AÖS-ün fəaliyyətində gözlənilməz fasilələr baş verdikdə iştirakçılara ən qısa zamanda elektron və ya kağız daşıyıcıda məlumat verir və fəaliyyətin bərpa edilməsi üçün təxirəsalınmaz tədbirlər görür.

**4.4.** AÖS-də əməliyyatların aparılması üçün iştirakçı tərəfindən ayrılmış maliyyə vəsaitinin 80 (səksən) faizdən çox hissəsi istifadə edildikdə hər bir əməliyyat cəhdi zamanı iştirakçıya MX mesaj formatında və aidiyyəti iştirakçının Mərkəzi Bankı məlumatlandırmaqla

əvvəlcədən müəyyənləşdirdiyi inzibatçısına (inzibatçılarına) isə SMS və ya email vasitəsilə müvafiq xəbərdarlığın göndərilməsini təmin edir.

**4.5.** AÖS-ün reqlamentinə uyğun olaraq, qanunvericiliklə nəzərdə tutulmuş qeyri-iş günləri istisna olmaqla, yaranmış xalis mövqelər üzrə iştirakçılar arasında hesablaşmaların Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar Sistemi (bundan sonra AZIPS) vasitəsilə akseptsiz qaydada həyata keçilməsini təmin edir.

**4.6.** AÖS-də aparılan əməliyyatlar üzrə hesablanmış xidmət haqlarını iştirakçıların müxbir hesablarından sistemin reqlamentinə uyğun olaraq AZIPS vasitəsilə akseptsiz qaydada silir.

**4.7.** AÖS-də göstərilən xidmətlər və aparılan əməliyyatlara görə hesablanmış interçeync və vasitəçilər üçün xidmət haqları üzrə qarşılıqlı hesablaşma əməliyyatlarını sistemin reqlamentinə uyğun olaraq AZIPS vasitəsilə aidiyyəti müxbir hesablarda akseptsiz qaydada icra edir.

**4.8.** Ödəniş əməliyyatlarının emalı zamanı yarana biləcək risklərin qarşısının alınması üçün fırıldaqçılıq halları üzrə ilkin qiymətləndirmənin aparılması, şübhəli əməliyyatlar üzrə müvafiq tədbirlər görülməsini təmin edir.

**4.9.** AÖS infrastrukturunda mövcud olmayan yeni məhsulun təqdim olunması və ya xidmətlərin göstərilməsi barədə iştirakçılardan daxil olan təkliflər üzrə qərarını 1 (bir) aydan gec olmayaraq bildirir.

**4.10.** İstifadəçilər üçün mobil tətbiq, internet səhifə və mobil telefon platformasında strukturlaşdırılmamış xidməti məlumatlar servisi (bundan sonra - USSD) üzərindən şəxsi kabinetin yaradılması funksional imkanını təmin edir.

**4.11.** AÖS iştirakçıları tərəfindən “Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası” modulunda qeydiyyatdan keçirilmiş istifadəçilərin şəxsi kabinetinin aktivləşdirilməsi məqsədilə birdəfəlik şifrələrin yaradılması və SMS vasitəsilə həmin istifadəçilərə göndərilməsi üçün funksional imkanı təmin edir.

**4.12.** Şəxsi kabinetini aktivləşdirmiş istifadəçilər üçün daimi şifrələrin sistemdə saxlanılması, bu şifrələrdən şəxsi kabinetə giriş zamanı autentifikasiya vasitəsi kimi istifadə olunması və dəyişdirilməsi üçün funksional imkanı təmin edir.

**4.13.** İstifadəçilərin AÖS-ün internet səhifəsində yaradılmış şəxsi kabinetlərinə daxil olmaları üçün iki səviyyəli autentifikasiyanı təmin edir.

**4.14.** AÖS-ün mobil tətbiqi və şəxsi kabinet vasitəsi ilə əlavə olunan və ya dəyişdirilən mobil nömrə və elektron poçt ünvanı, həmçinin digər alternativ eyniləşdirmə vasitələrinin

qeydiyyatdan keçirilməzdən öncə istifadəçi tərəfindən təsdiq edilməsi üçün funksional imkanı təmin edir.

**4.15.** AÖS mobil tətbiqində əməliyyatı həyata keçirən istifadəçiyə, qarşı tərəfin qısa adı (fiziki şəxslərdə və fərdi sahibkarlarda adın ilk hərfi və soyad, hüquqi şəxslərdə qısaldılmış firma adı) haqqında məlumatın çatdırılması və təsdiqin alınması üçün funksional imkanı təmin edir.

## 5. Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin vəzifələri

**5.1.** Büdcə ödənişlərinin AÖS vasitəsilə yerinə yetirilməsi üçün "AÖS-ün nüvəsi" ilə ISO20022 standartı əsasında məlumat mübadiləsinin həyata keçirilməsini təmin edir.

**5.2.** AÖS vasitəsilə Hökumət Ödəniş Portalı üzərindən aparılan büdcə ödənişləri istisna olmaqla sistemdən daxil olan avtorizasiya sorğularını bu Qaydaların 11-ci hissəsində müəyyənləşdirilmiş vaxt intervalında cavablandırır.

**5.3.** AÖS vasitəsilə həyata keçirilən büdcə ödənişlərini qəbul edir, müvafiq büdcə hesablarına işləyir və aidiyyəti dövlət qurumlarını bu daxilolmalar haqqqında məlumatla real rejimdə təmin edir.

## 6. Birbaşa iştirakçıların və birbaşa olmayan iştirakçıların vəzifələri

**6.1.** AÖS infrastrukturuna inteqrasiya olunmaq və müştərilərinə bu infrastruktur üzərindən mümkün olan xidmətlərin təqdim olunması üçün sistemin bu Qaydaların 3.3-cü bəndində sadalanan komponentləri ilə məlumat mübadiləsini təmin edir.

**6.2.** Daxili sistemlərində planlı dayanma hallarında Mərkəzi Bankı 3 (üç) gün öncədən yazılı qaydada məlumatlandırır.

**6.3.** "Açıq Bankçılıq" modulu vasitəsilə istifadəçilərin AÖS-də qeydiyyatı ilə bağlı daxil olan sorğuları qəbul edir, "Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası" modulu vasitəsilə təqdim olunan funksionallardan istifadə etməklə istifadəçilərin AÖS-də qeydiyyatını həyata keçirir və əvvəllər qeydiyyatdan keçirilmiş istifadəçilərə aid məlumatlarda dəyişiklik edilməsi və ya yeni məlumatların daxil edilməsi ilə bağlı iştirakçıya ünvanlanmış sorğu olduqda həmin dəyişikliklərin AÖS-ə ötürülməsini təmin edir.

**6.4.** İstifadəçilərin qeydiyyat prosesində istifadəçi tərəfindən təqdim olunan alternativ eyniləşdirmə vasitələrinin və əlaqə məlumatlarının OTP vasitəsi ilə yoxlanmasını təmin edir.

**6.5.** AÖS-ün "Açıq Bankçılıq" modulunun imkanlarından istifadə olunmaqla vasitəçilər tərəfindən əməliyyatlar aparıldığı halda obyektiv səbəblər istisna olmaqla, hər hansı ayrı-seçkilik olmadan, xüsusilə də istifadəçi tərəfindən birbaşa aparılan əməliyyatlara prioritetlik vermədən və xidmət haqqı fərqi yaratmadan emal prosesini həyata keçirir.

**6.6.** AÖS-ün “Açıq Bankçılıq” modulu vasitəsilə qəbul edilən icazə sorğuları üzrə bu Qaydaların 11-ci hissəsində müəyyənləşdirilmiş vaxt çərçivəsində icazə yaradaraq, sorğunu cavablandırır.

**6.7.** Xidmət etdiyi istifadəçilər barəsində AÖS-ün “Açıq Bankçılıq” modulu vasitəsilə daxil olan sorğuları bu Qaydaların 11-ci hissəsində nəzərdə tutulmuş vaxt intervalından gec olmamaqla emal edir və cavablandırır.

**6.8.** Xidmət etdiyi istifadəçilərin hesabını (hesablarını) “Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası”nda qeydiyyatdan keçirmək üçün AÖS-ün “Açıq Bankçılıq” modulu vasitəsilə daxil olan sorğunu müvafiq qaydada emal edir və cavablandırır.

**6.9.** Vasitəçilərdən qəbul edilən ödəniş sorğusunu (pain001) və ödənişin geri qaytarılması sorğusunu (camt.056) “Açıq Bankçılıq” modulu vasitəsilə verilmiş icazəyə əsasən bu Qaydaların 11-ci hissəsində müəyyənləşdirilmiş vaxt intervalında autentifikasiya etməklə ödəniş tapşırığı və ya ödənişin geri qaytarılması tapşırığı formalaşdıraraq AÖS-ə göndərir.

**6.10.**Xidmət etdiyi istifadəçilərin AÖS-də apardığı əməliyyatlar üzrə daxil olan ödəniş sorğularını və ödəniş tapşırıqlarını, həmçinin də ödənişin geri qaytarılması üzrə avtorizasiya sorğularını bu Qaydaların 11-ci hissəsində nəzərdə tutulan vaxt intervalından gec olmamaqla cavablandırır.

**6.11.** AÖS-ə göndərilən bütün məlumat mübadiləsi formatlarında AÖS tərəfindən təyin olunmuş qaydada əməliyyatların eyniləşdirmə nömrəsinin unikallığını təmin edir.

**6.12.** AÖS-ə göndərilən məlumat mübadiləsi formatlarında kodlaşdırma tələb olunan kəmiyyətlər üçün bu Qaydaların 3.4-ci bəndinin tələblərinə uyğun düzgün istifadəni təmin edir.

**6.13.** Ödəniş sorğusunu və ya ödəniş tapşırığını AÖS-ə göndərən zaman istifadəçiyə qarşı tərəfin qısa adı (fiziki şəxslərdə və fərdi sahibkarlarda adın ilk hərfi və soyad, hüquqi şəxslərdə qısaldılmış firma adı) haqqında məlumatın çatdırılması və təsdiqin alınmasını təmin edir.

**6.14.** Xidmət göstərdiyi istifadəçilərin xeyrinə AÖS-də aparılan əməliyyatlar üzrə vəsaitin əməliyyat başa çatdıqdan sonra bu Qaydaların 11-ci hissəsində nəzərdə tutulan vaxt intervalından gec olmamaqla müvafiq hesaba işlənilməsini və istifadəçinin məlumatlandırılmasını təmin edir.

**6.15.** Ehtiyac yarandıqda əməliyyatın icra edildiyi tarixdən 14 (on dörd) gün müddətində ödənişin geri qaytarılması sorğusunu hər bir əməliyyat üzrə təsdiq və ya imtina cavabı alınana qədər, cəhdlərin ümumi sayı 3-dən (üçdən) çox olmamaq şərtilə təkrar göndərir.

**6.16.** Ödənişin geri qaytarılmasına ehtiyac yarandıqda əməliyyatın icra edildiyi tarixdən 14 (on dörd) gün müddətində hər bir ödəniş üzrə yalnız bir ödənişin geri qaytarılması tapşırığını (pacs.004) sistemə göndərir.

**6.17.** Aparılan əməliyyatlar üzrə çıxarış sənədində sistemin adını əks etdirir.

**6.18.** İstifadəçidən xidmət haqqı tutulması nəzərdə tutulan hallarda bu barədə istifadəçini hər bir əməliyyatdan əvvəl məlumatlandırır və istifadəçinin arzusu ilə ödənişdən imtina olunması imkanını təmin edir.

**6.19.** Özünün və hesablaşma bankı qismində çıxış etdiyi birbaşa olmayan iştirakçıların AÖS-də likvidliyini təmin edir.

**6.20.** AÖS-də vasitəçi qismində çıxış etdikdə vasitəçinin vəzifə və funksiyalarını icra edir.

## 7. Vasitəçilərin vəzifələri

**7.1.** AÖS infrastrukturuna inteqrasiya olunmaq və bu infrastruktur üzərindən mümkün olan xidmətlərin təqdim olunması üçün sistemin aşağıdakı komponentləri ilə məlumat mübadiləsini təmin edir:

**7.1.1.** “AÖS-ün nüvəsi”;

**7.1.2.** “Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası” modulu;

**7.1.3.** “Açıq Bankçılıq” modulu.

**7.2.** AÖS-ün müvafiq texniki spesifikasiyalarına uyğun informasiya mübadiləsinin aparılması üçün terminallarda (POS terminal, bankomat və nəzarət kassa aparatları) funksionallıq yaradır.

**7.3.** AÖS-ə göndərilən bütün məlumat mübadilə formatlarında AÖS tərəfindən təyin olunmuş qaydada əməliyyatların eyniləşdirmə nömrəsinin unikallığını təmin edir.

**7.4.** Ehtiyac yarandıqda əməliyyatın icra edildiyi tarixdən 14 (on dörd) gün müddətində ödənişin geri qaytarılması sorğusunu hər bir əməliyyat üzrə təsdiq və ya imtina cavabı alınana qədər, cəhdlərin ümumi sayı 3-dən (üçdən) çox olmamaq şərtilə təkrar göndərir.

**7.5.** AÖS-ə göndərilən məlumat mübadiləsi formatlarında kodlaşdırma tələb olunan kəmiyyətlər üçün bu Qaydaların 3.5-ci bəndinin tələblərinə uyğun düzgün istifadəni təmin edir.

**7.6.** Ödəniş sorğusunu və ya ödəniş tapşırığını AÖS-ə göndərən zaman istifadəçiyə qarşı tərəfin qısa adı (fiziki şəxslərdə və fərdi sahibkarlarda adın ilk hərfi və soyad, hüquqi şəxslərdə müəssisənin qısaldılmış adı) haqqında məlumatın çatdırılması və təsdiqin alınmasını təmin edir.

**7.7.** Aparılan əməliyyatlar üzrə çıxarış sənədində sistemin adını əks etdirir.

**7.8.** İstifadəçidən xidmət haqqı tutulması nəzərdə tutulan hallarda bu barədə istifadəçini hər bir əməliyyatdan əvvəl məlumatlandırır və istifadəçinin arzusu ilə ödənişdən imtina olunması imkanını təmin edir.

**7.9.** Vasitəçi xidmət etdiyi istifadəçi və onun hesabına xidmət edən iştirakçı istisna olmaqla autentifikasiya məqsədilə istifadəçiyə təqdim edilən fərdiləşdirilmiş məlumatlara digər tərəflərin çıxışının qarşısını alır və ötürülən məlumatların təhlükəsizliyini təmin edir.

**7.10.** "Açıq Bankçılıq" modulu vasitəsilə xidmət etdiyi istifadəçi tərəfindən AÖS-də qeydiyyatının aparılması üçün təqdim edilən mobil nömrənin həmin şəxsin adına qeydiyyatda olub-olmamasının yoxlanılacağına dair elektron formada razılıq alır.

**7.11.**"Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası" modulunda qeydiyyatdan keçirilməsi üçün ötürülən məlumatlar üzrə istifadəçi razılığının olmasına zəmanət verir.

**7.12.** "Açıq Bankçılıq" modulu vasitəsilə xidmət etdiyi istifadəçidən onun bank hesabı haqqında məlumatlarının, hesab qalığının və əməliyyat tarixçəsinin sorğulanması, habelə hesab üzrə ödəniş sərəncamının verilməsi üçün vasitəçiyə müraciət daxil olduqda həmin əməliyyatın aparılması üçün istifadəçidən elektron formada razılıq alır.

**7.13.**İstifadəçilərin qeydiyyat prosesində istifadəçi tərəfindən təqdim olunan alternativ eyniləşdirmə vasitələrinin və əlaqə məlumatlarının OTP vasitəsi ilə yoxlanmasını təmin edir.

**7.14.**Ödəniş xidmətinin göstərilməsi ilə əlaqədar olmadıqda "Açıq Bankçılıq" modulu vasitəsilə xidmət etdiyi istifadəçinin ödəniş məlumatlarını istifadəçinin razılığı olmadan istifadə etməməli, saxlamamalı və ya bu məlumata girişə cəhd etməməlidir;

**7.15.** "Açıq Bankçılıq" modulu vasitəsilə xidmət etdiyi istifadəçidən AÖS üzrə ödəniş xidmətinin göstərilməsi üçün zəruri olmayan əlavə məlumatlar tələb etməməlidir.

**7.16.**Istifadəçinin bank sirri məlumatlarının (istifadəçi bank hesabı, hesab qalığı və əməliyyat tarixçəsi haqqında məlumatların) qeyri-qanuni açıqlanmasına yol verməməlidir.

## 8. Mobil operatorların vəzifələri

**8.1.** USSD vasitəsilə AÖS tərəfindən təqdim olunan xidmətlərdən istifadənin təmin edilməsi üçün qısa kod (247) ayırır.

**8.2.** Ayrılmış qısa kod üzərindən USSD vasitəsilə ilə müvafiq protokola uyğun standart əsasında şifrələnmiş kanal ilə təhlükəsiz məlumat mübadiləsinin aparılmasını təmin edir.

**8.3.** Mobil telefonlardan USSD üzərindən AÖS-də aparılan əməliyyatlar üzrə xəbərdarlıq ("Push") və təsdiq ( "interaktiv Push") məqsədilə istifadə olunması üçün funksional imkan yaradır.

**8.4.** AÖS vasitəsilə xidmət etdiyi istifadəçinin ödəniş məlumatlarını saxlamamalı, AÖS ilə bağlı xidmətlərdən başqa hər hansı digər məqsədlərlə bu məlumatlara girişə cəhd etməməli və bu məlumatlardan istifadə etməməlidir.

**8.5.** AÖS vasitəsilə xidmət etdiyi istifadəçidən AÖS üzrə ödəniş xidmətinin göstərilməsi üçün zəruri olmayan əlavə məlumatlar tələb etməməlidir.

**8.6.** Istifadəçinin bank sirri məlumatlarının (istifadəçi bank hesabı, hesab qalığı və əməliyyat tarixçəsi haqqında məlumatların) qeyri-qanuni açıqlanmasına yol verməməlidir.

## 9. İştirakçılar tərəfindən istifadəçilərin eyniləşdirilməsi

**9.1.** AÖS-də istifadəçilərin eyniləşdirilməsi prosesi istifadəçilərin seçimi əsasında vaxt əsaslı birdəfəlik kod (bundan sonra – TOTP), OTP, mobil tətbiqdə təsdiq (bundan sonra - Push mobile) metodları vasitəsi ilə mərkəzi autentifikasiya servisində (məkəzləşdirilmiş qaydada) və ya iştirakçıların öz daxili servisləri vasitəsi ilə icra olunur.

**9.2.** “Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası” modulunda istifadəçilərin qeydiyyatı zamanı aşağıdakılar nəzərə alınmalıdır:

**9.2.1.** autentifikasiya metodu istifadəçinin hər bir bank hesabı üzrə təyin edilir;

**9.2.2.** əgər müvafiq metodlardan heç biri istifadəçiyə təqdim oluna bilmirsə, bu halda autentifikasiya metodu əvəzinə “NONE” dəyəri götürülməklə qeydiyyat aparılır;

**9.2.3.** istifadəçilərin əlaqə vasitələri olan mobil nömrə və elektron poçt ünvanlarının iştirakçı tərəfindən “OTP” vasitəsi ilə eyniləşdirilməsi prosesi həyata keçirilir;

**9.2.4.** təyin edilən autentifikasiya metodu mərkəzləşdirilmiş qaydada icra edilən metodlardan hər hansı biri olduğu təqdirdə “Autentifikasiya” moduluna müvafiq sorğu göndərilməklə həmin istifadəçi üçün bu metodun mövcud olub-olmaması müəyyənləşdirilməli və yalnız bundan sonra qeydiyyat aparılmalıdır.

**9.3.** Vasitəçilər tərəfindən formalaşdırılan hər bir ödəniş sorğusunun tərkibinə istifadəçinin eyniləşdirilməsinə dair metod “Mərkəzləşdirilmiş Müştəri Məlumatları Bazası” modulundan alınmaqla daxil edilməlidir.

**9.4.** İstifadəçinin eyniləşdirilməsi metodu “TOTP” və ya “OTP” olduğu halda ödəniş sorğusunun tərkibində müvafiq sahədə metodun adı ilə yanaşı istifadəçi tərəfindən daxil edilmiş kod da ötürülməlidir.

**9.5.** İstifadəçinin eyniləşdirilməsi metodu “Push mobile” olduğu halda ödəniş sorğusunun tərkibinə yalnız metodun adı daxil edilməlidir.

**9.6.** Ödəniş sorğusunu qəbul edən iştirakçı sorğunun tərkibində ötürülən eyniləşdirmə metoduna uyğun olaraq istifadəçini aşağıdakı qaydada eyniləşdirməlidir:

**9.6.1.** İstifadəçinin eyniləşdirilməsi metodu mərkəzləşdirilmiş qaydada icra olunduğu halda eyniləşdirmə üçün AÖS-ün “Autentifikasiya” moduluna müraciət edilməlidir;

**9.6.2.** İstifadəçinin eyniləşdirilməsi metodu iştirakçı təşkilat tərəfindən idarə edildiyi halda təşkilatın bu məqsədlə nəzərdə tutulmuş daxili servisinə müraciət edilməlidir.

**9.7.** Əgər istifadəçinin eyniləşdirilməsinə zərurət yoxdursa və ya eyniləşdirmə təşkilatın daxili servisində öncədən aparılmışdırsa ödəniş sorğusu formalaşdırılarkən eyniləşdirmə metodu kimi “NOT_AUTH” dəyəri daxil edilməlidir.

**9.8.** Vasitəçilər tərəfindən başladılan ödəniş sorğusunda istifadəçinin autentifikasiya metodu “OTP” olduğu halda, aşağıdakılar həyata keçirilməlidir:

**9.8.1.** ödəniş sorğusunun icrasına başlayan iştirakçı tərəfindən istifadəçiyə SMS göndərilməsi üçün “Açıq Bankçılıq” modulunun müvafiq metodundan istifadə edilməlidir;

**9.8.2.** “Açıq Bankçılıq” modulu vasitəsilə “OTP” kodunun göndərilməsi üzrə müraciəti qəbul edən iştirakçı öz kanalı vasitəsi ilə müştərisinə “OTP” kodun göndərilməsini təmin etməlidir.

**9.9.** Qarşı tərəfin mobil tətbiq və ya internet səhifəsinin şəxsi kabinetindən formalaşdırılan ödəniş sorğusunun tərkibində istifadəçinin eyniləşdirilməsi metodu kimi “CONSENT” qeyd edilməklə “Açıq Bankçılıq” modulu üzərindən alınmış icazənin dəyəri ötürülməlidir.

**9.10.**Vasitəçi təşkilatın ödəniş kanalları vasitəsilə vəsaiti qaytarmaq istəyən istifadəçi tərəfindən formalaşdırılan ödənişin geri qaytarılması sorğusunun tərkibində istifadəçinin eyniləşdirilməsi metodu kimi “CONSENT” qeyd edilməklə “Açıq Bankçılıq” modulu üzərindən alınmış icazənin dəyəri ötürülməlidir.

**9.11.**İstifadəçi hesablarında qalıq və əməliyyat tarixçəsinin özünəxidmət terminallarından (bankomat, ödəniş terminalı və s.) “Açıq Bankçılıq” modulu vasitəsilə sorğulanması zamanı icazə sorğusunu başladan iştirakçı kanalın tipi olaraq “TERMINAL” dəyərini müvafiq sahədə qeyd etməlidir. Bu zaman sorğunu qəbul edən iştirakçı risk faktorunu nəzərə alaraq, bu Qaydaların 11-ci hissəsində müəyyənləşdirilmiş vaxt ərzində qüvvədə olacaq birdəfəlik icazə yaratmalıdır və qarşı tərəfə ötürməlidir.

**9.12.**İstifadəçi hesablarının mobil tətbiq və internet səhifəsində şəxsi kabinetdən idarə edilməsi üçün “Açıq Bankçılıq” modulu üzərindən icazə sorğusunu başladan iştirakçı kanalın tipi kimi müvafiq qaydada “IMEI” və ya “WEB” dəyərlərini aidiyyəti sahədə qeyd etməlidir.

## 10. Əməliyyatlar üzrə təyin edilmiş vaxt limitləri

**10.1.** Benefisiar iştirakçı qəbul edilmiş ödəniş tapşırığını (pacs.008) 5 (beş) saniyədən gec olmamaq şərti ilə emal etməli və nəticə uğurlu olduqda AÖS-ə təsdiq, əks halda isə imtina bildirişi göndərməlidir.

**10.2.** Ödənişin geri qaytarılması tapşırığını qəbul edən emitent iştirakçı 5 (beş) saniyədən gec olmamaq şərti ilə sənədi emal etməli və nəticə uğurlu olduqda AÖS-ə təsdiq, əks halda isə imtina bildirişi göndərməlidir.

**10.3.** Ödəniş sorğusunu ( autentifikasiya metodu “Push mobile”-dan və ya əməliyyatın növünü təyin edən kod “CRTP”-dən fərqli olduqda) qəbul edən emitent iştirakçı 5 (beş) saniyədən gec olmamaq şərti ilə sənədi emal etməli və nəticə uğurlu olduqda AÖS-ə ödəniş tapşırığı, əks halda isə imtina bildirişi göndərməlidir.

**10.4.** Ödəniş sorğusunu ( autentifikasiya metodu “Push mobile” olduqda) qəbul edən emitent iştirakçı 25 (iyirmi beş) saniyədən gec olmamaq şərti ilə sənədi emal etməli və nəticə uğurlu olduqda AÖS-ə ödəniş tapşırığı, əks halda isə imtina bildirişi göndərməlidir.

**10.5.** Ödəniş sorğusunu ( əməliyyatın növünü təyin edən kod “CRTP” olduqda) qəbul edən emitent iştirakçı 24 (iyirmi dörd) saatdan gec olmamaq şərti ilə sənədi emal etməli və nəticə uğurlu olduqda AÖS-ə ödəniş tapşırığı, əks halda isə imtina bildirişi göndərməlidir.

**10.6.** Vasitəçi təşkilatın ödəniş kanalları vasitəsilə vəsaiti qaytarmaq istəyən istifadəçi tərəfindən ödənişin geri qaytarılması sorğusunu (strukturlaşdırılmış məlumat kodu “MRTN” və ya “CRTN” olduqda) qəbul edən benefisiar iştirakçı 5 (beş) saniyədən gec olmamaq şərti ilə sənədi emal etməli və nəticə uğurlu olduqda AÖS-ə ödənişin geri qaytarılması tapşırığını, əks halda isə imtina bildirişi göndərməlidir.

**10.7.**İstifadəçi tərəfindən ödənişin geri qaytarılması sorğusunu (strukturlaşdırılmış məlumat kodu “CRCL” olduqda) qəbul edən benefisiar iştirakçı 24 (iyirmi dörd) saatdan gec olmamaq şərti ilə sənədi emal etməli və nəticə uğurlu olduqda AÖS-ə ödənişin geri qaytarılması tapşırığını, əks halda isə imtina bildirişi göndərməlidir.

**10.8.**“Açıq Bankçılıq” modulu vasitəsilə icazə yaratmaq sorğusu qəbul edən iştirakçı, sorğu özünəxidmət terminallarından (bankomat, ödəniş terminalı və s.) daxil olduqda icazəni qısamüddətli (5 (beş) dəqiqəlik), digər vasitələrdən daxil olduqda isə uzunmüddətli (12 (on iki) aydan çox olmamaqla) yaratmalıdır.

**10.9.**“Açıq Bankçılıq” modulu vasitəsilə yaradılmış uzunmüddətli icazələr, icazə müddəti bitmədən istifadəçinin öz istəyi ilə ləğv edilə bilər.

**10.10.** “Açıq Bankçılıq” modulu vasitəsilə sorğu qəbul edən iştirakçı sorğunu 5 (beş) saniyədən gec olmamaqla cavablandırmalıdır.

**10.11.** İştirakçı xidmət göstərdiyi istifadəçilərin xeyrinə AÖS-də aparılan əməliyyatlar üzrə vəsaiti əməliyyatın başa çatmasından 5 (beş) saniyədən gec olmamaq şərti ilə müvafiq hesaba işlənilməsini və istifadəçinin məlumatlandırılmasını təmin etməlidir.

## 11. Əməliyyatların valyutası və hər bir əməliyyat tranzaksiyası üçün limit

**11.1.** AÖS-də əməliyyatlar milli valyutada (manat) aparılır.

**11.2.** Ödənişin geri qaytarılması tapşırığı və sorğusu əməliyyat məbləğinin tam və ya onun müəyyən hissəsinin həcmində ola bilər.

## 12. Yekun müddəalar

**12.1.** Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Elman Rüstəmov**

**“Ani Ödənişlər Sistemində iştirakçıların fəaliyyətinin təşkili üzrə prosedur Qaydalar”a**

**Əlavə №1**

**Ani Ödənişlər Sistemi**
**vasitəsilə əməliyyatların aparılması**
**REQLAMENTİ**

**1. AÖS aşağıdakı vaxt intervallarına uyğun olaraq fəaliyyət göstərir:**

| Vaxt | Əməliyyatların məzmunu | İcraçı |
|---|---|---|
| Əməliyyat günü: 00:00 - 24:00 | İştirakçılar tərəfindən ödəniş (o cümlədən, geri qaytarılma) tapşırığı və sorğuların göndərilməsi və qəbul edilməsi | İştirakçı |
| Əməliyyat günü: 09:30 - 24:00 | İştirakçılar tərəfindən limitlərin müəyyənləşdirilməsi | İştirakçı |
| Əməliyyat günü: 00:00 - 00:30 | Yeni əməliyyat gününün açılması, əvvəlki əməliyyat günü üzrə hesablardan çıxarışların iştirakçılara göndərilməsi | Mərkəzi Bank |
| Növbəti iş günü: 10:00 - 10:30 | İştirakçılar tərəfindən aparılan əməliyyatlara görə xidmət haqlarının tutulması | Mərkəzi Bank |
| Növbəti iş günü: 10:30 - 11:00 | İştirakçılar tərəfindən aparılan əməliyyatlara görə interçeync və vasitəçilər üçün servis xidmət haqları üzrə qarşılıqlı hesablaşmaların aparılması və iştirakçılara hesabatın göndərilməsi | Mərkəzi Bank |
| İş günü: 09:30 - 10:00 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 1-ci tənzimləmə prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |
| İş günü: 13:00 - 13:30 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 2-ci tənzimləmə | Mərkəzi Bank |

| | | |
|---|---|---|
| | prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | |
| İş günü: 15:00 - 15:30 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 3-cü tənzimləmə prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |
| İş günü: 16:30 - 17:00 | Aparılmış əməliyyatlar üzrə AÖS hesablaşma hesablarında yaranmış xalis mövqelər üzrə AZIPS-də müvafiq müxbir və ya cari hesablarda 4-cü tənzimləmə prosedurunun icra edilməsi və iştirakçılara hesablarından çıxarışların göndərilməsi | Mərkəzi Bank |

**2. AÖS-də hər bir ödəniş əməliyyatı üçün müəyyənləşdirilmiş limit**

AÖS-də əməliyyatın məbləği Dövlət Xəzinədarlığı Agentliyi, Mərkəzi Bank, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" ASC tərəfindən göndərilən və alınan ödənişlər istisna olmaqla 40000 (qırx min) manatdan çox olmamalıdır.